## Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Müstəqil Azərbaycan Respublikasında təhsil sahəsində geniş miqyaslı islahatlar həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş İslahat Proqramından irəli gələn məsələlərin həlli, o cümlədən təhsilin idarə olunmasında yeni prinsiplərin bərqərar olması, təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılması təhsil sisteminin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyur.

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrinə tədris-metodiki rəhbərlik, təlim və tədris prosesinin keyfiyyətinə nəzarət Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən həyata keçirilir. [1]

2. Azərbaycan Respublikasında ayrı-ayrı nazirliklərin, dövlət komitələrinin, konsernlərinin, şirkətlərinin, birliklərinin və digər dövlət qurumlarının tabeliyində olan təlim-tərbiyə və təhsil müəssisələri (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin, Azərbaycan Hava Yolları Dövlət Konserninin tabeliyində olan təhsil müəssisələri və Azərbaycan Kənd Təsərrüfatı Akademiyası istisna olmaqla) Azərbaycan Respublikası *Elm və Təhsil* Nazirliyinin tabeliyinə verilsin.[2]

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı şəhərində orta təhsil sisteminin idarə edilməsinin təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;[3]

4. Dövlət ali və orta ixtisas təhsil müəssisələrinin filialları ləğv edilsin.

5. Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət ali və orta ixtisas təhsil müəssisələrindən şəxs adları götürülsün.

6. Müəyyən edilsin ki, ~~Bakı Dövlət Universiteti,~~ Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası və Azərbaycan Kənd Təsərrüfatı Akademiyası özünüidarəetmə prinsipi əsasında fəaliyyət göstərir və onların maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsi hazırlanarkən ayrıca sətirlə verilir.[4]

7. Azərbaycan Dövlət İqtisad İnstitutunun, Bakı Əmtəəşünaslıq və Kommersiya İnstitutunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradılsın.

Ölkədə iqtisadi profilli mütəxəssislərin hazırlanması işinin təkmilləşdirilməsi zərurətini nəzərə alaraq Azərittifaqa tövsiyə olunsun ki, Azərbaycan Kooperasiya İnstitutunun gələcək fəaliyyəti və Bakı Kooperativ Texnikumunun profilinin dəyişdirilməsi məsələsini Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə baxıb həll etsin".[5]

8. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin təsviri sənət profilli fakültələrinin və Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun bazasında Azərbaycan Rəssamlıq Akademiyası təsis edilsin. Akademiyanın nəzdində fəaliyyət göstərən İncəsənət Kolleci yaradılsın.

9. Bakı Musiqi Akademiyasının xalq musiqisi profili ixtisaslarının və Azərbaycan Dövlət Musiqi Texnikumunun bazasında Azərbaycan Milli Konservatoriyası təsis edilsin. Konservatoriyanın nəzdində fəaliyyət göstərən Musiqi Kolleci yaradılsın.

10. Məktəbəqədər təhsil müəssisələri və ümumi təhsil müəssisələrinin ibtidai sinifləri üçün pedaqoji kadrlar hazırlamaq, habelə müəllimlərin əlavə təhsilini təmin etmək məqsədi ilə Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu yaradılsın. İnstitutun Ağcabədi (Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialı, Bakı Mədəni-Maarif Texnikumunun Ağcabədi şöbəsi və Ağdaş Pedaqoji Texnikumunun Ağcabədi şöbəsinin bazasında), Cəlilabad (Cəlilabad Kənd Təsərrüfatı Texnikumunun bazasında), ~~Gəncə (Gəncə Zona Müəllimləri Təkmilləşdirmə İnstitutunun və Gəncə şəhəri təsərrüfat hesablı Məişət Kollecinin bazasında),~~ Qazax (Gəncə Dövlət Pedaqoji İnstitutunun Qazax filialının bazasında), Quba (Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Quba filialının bazasında), ~~Mingəçevir (Mingəçevir Politexnik Texnikumunun və Azərbaycan Maliyyə-İqtisad Kollecinin Xocalı filialının bazasında),~~ Naxçıvan (Naxçıvan Politexnik Texnikumunun bazasında), ~~Salyan (Salyan Kənd Təsərrüfatı Texnikumunun bazasında), Sumqayıt (Sumqayıt Politexnik Texnikumunun bazasında),~~ Şamaxı (Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının bazasında), Şəki (Bakı Dövlət Universitetinin Şəki filialının və Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun Şəki filialının bazasında) və Zaqatalada (Zaqatala Politexnik Texnikumunun bazasında) filialları açılsın. Təhsil Nazirliyi respublikanın bölgələrində pedaqoji yönlü təhsil mərkəzləri şəbəkəsinin genişləndirilməsi və onun imkanlarından regionlarda müəllimlərin təkmilləşdirilməsi, ixtisaslarının artırılması və yenidən hazırlanması sistemi üçün dayaq məntəqələri kimi istifadə olunması haqqında təkliflərini bir ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etsin.[6]

11. Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universiteti yaradılsın.

12. Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun profili genişləndirməklə "Bakı Slavyan Universiteti"

yaradılsın.

13. Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirməklə "Azərbaycan Dillər Universiteti" yaradılsın.

14. Gəncə Dövlət Pedaqoji İnstitutunun profili genişləndirilməklə "Gəncə Dövlət Universiteti" yaradılsın.

15. Azərbaycan Texnologiya İnstitutunun profili genişləndirilməklə "Azərbaycan Texnologiya Universiteti " yaradılsın.

16. Azərbaycan İnşaat Mühəndisləri Universiteti "Azərbaycan Memarlıq və İnşaat Universiteti" adlandırsın.

*17. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Azərbaycan Respublikasının Təhsil İnstitutu adlandırılsın.*[7]

18. Təhsil Nazirliyinin nəzdində müasir informasiya texnologiyalarının, audio-video materialların təhsildə tətbiqi, məsafədən təhsil üsullarının, tərbiyə və təlimin günün tələblərinə uyğun digər metodlarının həyata keçirilməsi məqsədi ilə təsərrüfat hesablı Təhsil Texnologiyaları Mərkəzi yaradılsın.

19. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi və digər aidiyyəti orqanlarla birlikdə:

müəllimlərin müasir tələblərə cavab verən attestasiya mexanizmini iki ay müddətində hazırlayıb təsdiq etsin;

təhsil sistemində yeni şəraitə uyğun idarəetmə mexanizmini, o cümlədən təhsil müəssisələrinin özünüidarəetmə əsasında fəaliyyətini tənzimləyən sənədləri bir ay müddətində hazırlayıb təsdiq etsin;

təhsil müəssisələrində verilən təqaüdlərin stimullaşdırıcı rolunu artırmaq məqsədilə bu sənədə mövcud qaydaların təkmilləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

tədris prosesinin səmərəliliyini artırmaq məqsədi ilə icbari ümumi orta təhsilin optimal müddətinə dair, müəllimlərin illik və həftəlik tədris yükünün minimum həddinin müəyyənləşdirilməsi barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu fərmanın icrası nəticəsində qənaət olunan maliyyə vəsaitinin təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsinə və təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsini təmin etsin;

təhsil qurumlarının ləğv olunması və ya birləşdirilməsi nəticəsində onların azad olmuş maddi-texniki bazasından yalnız təhsil məqsədləri üçün istifadə olunmasını təmin etsin;

Bakı Dövlət Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Kollecinin ərazisində yerləşən natamam tikililərin müvafiq olaraq onların balansına verilməsini və tikintisi yarımçıq qalmış binalarının inşasının başa çatdırılmasını maliyyələşdirmək üçün dövlət büdcəsinin layihəsi hazırlanarkən onların daxili imkanlarını nəzərə almaqla lazımi vəsaitin ayrılmasını təmin etsin;

Azərbaycan Respublikasında təhsilin keyfiyyətinə nəzarət mexanizmini iki ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasında təhsilin bütün pillələrindəki qeyri-dövlət müəssisələrinin fəaliyyətinin müvafiq standartlara uyğunluğunu təmin etmək məqsədi ilə tədbirlər görsün və nəticəsi barədə 2000-ci il avqustun 1-nə kimi Azərbaycan Respublikasının Prezidentinə məruzə etsin;

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin strukturunda təhsillə bilavasitə bağlı olan qurumların ştat vahidlərinin və maliyyə vəsaitinin Təhsil Nazirliyinin sərəncamına verilməsini təmin etsin;[8]

Təhsil Nazirliyinin yeni strukturu, ştat cədvəli və Əsasnaməsinin 2 ay ərzində hazırlanıb təsdiq olunmasını təmin etsin;

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

20. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2000-ci il
349

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 17 iyun 2000-ci il tarixli 352 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 6, maddə 431**)
2. 30 avqust 2000-ci il tarixli 391 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 8, maddə 614**)
3. 4 iyul 2001-ci il tarixli 522 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 7, maddə 459**)
4. 27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 743**)
5. 19 oktyabr 2007-ci il tarixli 640 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 945**)

6. 20 iyun 2008-ci il tarixli 778 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 496**)

7. 10 sentyabr 2009-cu il tarixli **158** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 sentyabr 2009-cu il, 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 9, maddə 687**)

8. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85** )

9. 11 aprel 2014-cü il tarixli **148** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 aprel 2014-cü il, 73 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 364**)

10. 11 sentyabr 2014-cü il tarixli **284** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1064**)

11. 24 iyul 2015-ci il tarixli **574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 iyul 2015-ci il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 842**)

12. 14 noyabr 2016-cı il tarixli **1107** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 17 noyabr 2016-cı il, 254 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1814**)

13. 2 noyabr 2017-ci il tarixli **1644** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 noyabr 2017-ci il, 242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1983**)

14. 3 mart 2023-cü il tarixli **2053** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 348**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 3 mart 2023-cü il tarixli **2053** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 348**) ilə 1-ci, 2-ci hissələrində və 19-cu hissəsinin birinci abzasında "**Təhsil**" sözü "**Elm və Təhsil**" sözləri ilə əvəz edilmişdir.

[2] 30 avqust 2000-ci il tarixli **391** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 8, maddə 614**) ilə Fərmanın 2-ci bəndindəki **"Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin"** sözlərindən sonra "**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin, Azərbaycan Hava Yolları Dövlət Konserninin**" sözləri əlavə edilmişdir.

4 iyul 2001-ci il tarixli **522** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 7, maddə 459**) ilə 2-ci bəndində "**Gənclər və İdman"** sözləri "**Gənclər, İdman və Turizm**" sözləri ilə əvəz edilmişdir.

27 sentyabr 2006-cı il tarixli **466** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 743**) ilə 2-ci bəndində «Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm» sözləri «Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman» sözləri ilə əvəz edilmişdir.

19 oktyabr 2007-ci il tarixli **640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 945**) ilə 2-ci bəndində "**tabeliyində olan təhsil müəssisələri**" sözlərindən sonra "**və Azərbaycan Kənd Təsərrüfatı Akademiyası**" sözləri əlavə edilmişdir.

20 iyun 2008-ci il tarixli **778** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 496**) ilə 2-ci bəndində "**Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin**" sözlərindən sonra ", **Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin**," sözləri əlavə edilsin.

10 sentyabr 2009-cu il tarixli **158** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 sentyabr 2009-cu il, 202, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 9, maddə 687**) ilə 2-ci bəndində "**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin,**" sözlərindən sonra "**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin,**" sözləri əlavə edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85** ) ilə 2-ci bənddə "**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin,**" sözlərindən sonra "**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin,**" sözləri əlavə edilmişdir.

11 aprel 2014-cü il tarixli **148** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 aprel 2014-cü il, 73 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 364**) ilə 2-ci hissəsində "**Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin**" sözləri "**Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 avqust 2000-ci il tarixli 391 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 8, maddə 614**) ilə 3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3 Təhsil Nazirliyinin Bakı Baş Təhsil İdarəsi ləğv edilsin, respublikanın bütün şəhər və rayon təhsil şöbələri bilavasitə Təhsil Nazirliyinin tabeliyinə verilsin. Cari ildən başlayaraq hər il dövlət büdcəsinin layihəsi hazırlanarkən orada şəhər və rayon təhsil şöbələrinin maliyyələşdirilməsi üçün müəyyən edilən vəsaitin birbaşa Təhsil Nazirliyinə ayrılması nəzərdə tutulsun. Müəyyən edilsin ki, ləğv edilmiş Bakı Baş Təhsil İdarəsinin maddi-texniki bazası və bütün qurumları Təhsil Nazirliyinin sərəncamına keçir.~~

[4] 2 noyabr 2017-ci il tarixli **1644** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 noyabr 2017-ci il, 242 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 1983**) ilə 6-cı hissədən "**Bakı Dövlət Universiteti,**" sözləri çıxarılmışdır.

[5] 30 avqust 2000-ci il tarixli 391 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2000-ci il, 8, maddə 614**) ilə 7-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~7. Azərbaycan Dövlət İqtisad İnstitutunun, Bakı Əmtəəşünaslıq və Kommersiya İnstitutunun, Azərittifaqın müraciətini nəzərə alaraq Azərbaycan Kooperasiya İnstitutu və Bakı Kooperativ Texnikumunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradılsın.~~

[6] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85** ) ilə 10-cu bəndin birinci cümləsində "**tərbiyə müəssisələri və məktəblərin**" sözü "**təhsil müəssisələri və ümumi təhsil müəssisələrinin**" sözləri ilə, "**ixtisaslarının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanmasını**" sözləri "**əlavə təhsilini**" sözləri ilə əvəz edilmişdir.

11 sentyabr 2014-cü il tarixli **284** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1064**) ilə 10-cu hissəsindən "**Gəncə (Gəncə Zona Müəllimləri Təkmilləşdirmə İnstitutunun və Gəncə şəhəri təsərrüfat hesablı Məişət Kollecinin bazasında),**" sözləri çıxarılmışdır.

24 iyul 2015-ci il tarixli **574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 iyul 2015-ci il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 842**) ilə Fərmanının 10-cu hissəsindən "**Mingəçevir (Mingəçevir Politexnik Texnikumunun və Azərbaycan Maliyyə-İqtisad Kollecinin Xocalı filialının bazasında),**" və "**Salyan (Salyan Kənd Təsərrüfatı Texnikumunun bazasında), Sumqayıt (Sumqayıt Politexnik Texnikumunun bazasında),**" sözləri çıxarılmışdır.

[7] 14 noyabr 2016-cı il tarixli **1107** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 17 noyabr 2016-cı il, 254 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1814**) ilə 17-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~17. Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdindəki Elmi-Metodik Mərkəz və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu yaradılsın.~~

[8] 17 iyun 2000-ci il tarixli 352 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 6, maddə 431**) ilə 19-cu bəndinin 11-cu abzasından "**Səhiyyə Nazirliyi**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin strukturunda təhsillə bilavasitə bağlı olan qurumların ştat vahidlərinin və maliyyə vəsaitinin Təhsil Nazirliyinin sərəncamına verilməsini təmin etsin;~~

4 iyul 2001-ci il tarixli 522 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 7, maddə 459**) ilə 19-cu bəndin on birinci abzasında " **Gənclər və İdman** " sözləri "**Gənclər, İdman və Turizm** " sözləri ilə əvəz edilmişdir.

27 sentyabr 2006-cı il tarixli 466 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 743**) ilə 19-cu bəndinin on birinci abzasında «Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət» sözləri «Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm» sözləri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S.2533-2536.

-

-